Təsdiq edirəm
ADMİU-nun rektoru
__________Professor Ceyran Mahmudova
"__12__" "__sentyabr__" 2025-ci il

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**7003017 – Sənətşünaslıq ixtisasının**
**Teatr tənqidi ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003017 – Sənətşünslıq ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;

- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;
- sənətşünaslıq sahəsində nəzəri və tənqidi metodları bilmək, elmi problemi formalaşdırmaq, hipotez irəli sürmək və tədqiqat metodlarının nəticələrini əsaslandırmaq;
- yüksək ixtisaslı sənətşünas funksiyalarını həyata keçirmək;
- sahəsi üzrə müxtəlif KİV-də redaktor və ekspert kimi elmi-publisistik məqalələri yazmaq və şərh etmək;
- sənətşünaslığa dair əsərlər haqqında tənqidi məqalələr yazmaq və dərc etdirmək; o sənətşünaslığın təbliği üçün maarifləndirmə işi aparmaq;
- konfrans, seminar, simpozium və mədəni tədbirləri təşkil və idarə etmək; o sahə üzrə terminologiyadan düzgün istifadə etmək; o sahə üzrə proseslərin sənədləşdirmə işlərini apara bilmək.

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

***Teatr tənqidi ixtisaslaşması üzrə:***

- topladığı nəzəri və tarixi biliklər əsasında teatr tamaşalarının və proseslərinin tənqidi təhlilini aparmaq və yazılı formada ifadə etmək;
- teatr tənqidinə dair nəzəri və elmi yanaşmaları, müasir tədqiqat metodlarını, eləcə də klassik və müasir tənqidi modelləri tətbiq etmək;
- tənqidin funksiyası, missiyası və mövcudluq fəlsəfəsi ilə bağlı əsas konseptual yanaşmaları, eləcə də teatr tənqidinin fəlsəfi, ideoloji və estetik əsaslarını mənimsəməklə təhlil etmək; - Azərbaycan klassik mədəniyyətinin etnomədəni kökləri ilə əlaqələrini, bu kontekstdə teatr tənqidini funksional yanaşmalar əsasında təhlil etmək;
- qlobal və yerli teatr mühitində baş verən yenilikləri, çağdaş sənət hadisələrini və onların yaranma səbəblərini tarixi və fəlsəfi kontekstdə şərh etmək;
- teatr festivallarının, müxtəlif səciyyəli müsabiqələrin quruluşu, funksiyası və beynəlxalq mədəni əməkdaşlıqdakı rolu barədə biliklərə malik olmaq və bu bilikləri praktik layihələrdə tətbiq etmək; - tənqid tarixini və əsas nəzəri istiqamətləri təhlil edərək yeni elmi nəticələrə gəlmək və onları resenziya və analitik yazılar formasında təqdim etmək;
- müxtəlif estetik mövqelərə, məktəblərə və teatr janrlarına bələd olmaq və plüralizm prinsiplərinə əsaslanmaq;
- tənqidi fəaliyyətin cəmiyyətə təsirini dərk etmək;
- Azərbaycan teatrının beynəlxalq festivallarda təmsil olunmasına yardım göstərmək, festival layihələri təqdim etmək;
- Azərbaycan teatrının fəlsəfi-estetik kontekstini inkişaf etdirmək.

### 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Teatr tənqidi | Magistr ali elmi-ixtisas | 2 il | 120 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Tədqiqat metodları**<br>*Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur.* | 6 |
| 2 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 3 | **Tədqiqat analitikası**<br>*Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq ("Excel", "SPSS", "Stata", "R", "MAXQDA", "Matlab", "Python" və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur.* | 6 |
| **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | | |
| 4 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>Ali məktəb pedaqogikası və psixologiyası fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. | 6 |

| | | |
|---|---|---|
| 5 | **Teatrşünaslığın tarixi və metodologiyası**<br>Bu fənnin məqsədi magistrature səviyyəsində təhsil alan tələbələrə Azərbaycan teatrının tarixini və onun inkişaf mərhələləri ilə tanış etməkdir. Bu fənnin tədrisi prosesində Azərbaycan teatr tənqidinin Azərbaycan teatrının inkişafında və formalaşmasında rolundan danışır. Fənn Azərbaycan teatrının yaranmasından başlayaraq Azərbaycan teatrlarının teatrşünaslığının təşəkkül və inkişaf qanunauyğunluqlarını öyrənir. | |
| 6 | **Teatrda janr və üslub məsələləri**<br>Teatrşünaslıq ixtisasının tələbələrinə bu fənnin tədrisində məqsəd onları teatr sənətində janr və üslub məsələləri ilə tanış etməkdir. Tədris prosesində tələbələrə teatr sənətində janr və üslubun təkamül tarixi, onların yaranma və təzahür xüsusiyyətləri, qarşılıqlı münasibətləri, təyinetmə yolları, çağdaş teatrda təzahür formaları və sair haqqında məlumat verilir. Fənnin əsas məqsədlərindən biri tələbələrin nəzəri biliklərini artırmaq və dərinləşdirmək, onlarda sərbəst fikir yürütmək və təhlil etmək qabiliyyətini formalaşdırmaq və inkişaf etditməkdən ibarətdir. | 6 |
| 7 | **Klassik pyeslərin teatr paradiqması**<br>Bu fənn teatrşünaslıq ixtisasında magistr pilləsi üzrə təhsil alan birinci kurs tələbələri üçün keçirlir. Kurs antik dövrdən etibarən teatrın müxtəlif inkişaf mərhələlərində klassik pyeslərin teatrda yozum xüsusiyyətlərinin təhlilinə əsaslanır. | 6 |
| 8 | **Teatrşünaslığın müasir problemləri**<br>Bu fənninin başlıca məqsədi magistraturada təhsil alan tələbələri mövcud nəzəri problemlərlə tanış edərək, onları bu problemlərin həlli yollarına cəlb etməkdən ibarətdir. Fənlərarası yanaşmanın geniş vüsət aldığı dövrdə teatrşünaslıq ixtisasına yiyələnən mütəxəssislərin öhdəsinə həm də teatrın problemlərini digər sahələrlə əlaqəli şəkildə öyrənmək, bu əlaqəni dərindən təhlil edə bilmək və nəhayət, yeni modellərin, uzaq proqnozların təklif olunması kimi bacarıqlar düşür. Təqdim olunan fənn çərçivəsində çalışılır ki, magistrantlarla dərslər diskussiya şəklində qurulsun və onlar yuxarıda sadalanan məsələlərin Azərbaycan teatrına da aid olduğunu hiss etsinlər. | 6 |
| 9 | **Qərb və Şərq teatrının inteqrasiyası tarixi**<br>Bu fənninin məqsədi magistraturada təhsil alan tələbələri Şərq və Qərb teatr mədəniyyətlərinin XIX və XX əsrlərdə reallaşan qarşılıqlı inteqrasiyaının tarixi və nəzəri-praktiki problemləri ilə tanış etməkdir. Bu fənnin tədrisi prosesində Avropanın və Rusiyanın aparıcı teatr xadimlərinin Şərq teatrının ənənəvi formalarına münasibəti öyrənilir. Fənnin tədrisi nəticəsində magistrantlar qloballaşan dünyada konkret lokal mədəniyyət daşıyıcılarının mənimsənilməsinin əhəmiyyətini duyacaq, onların yeni günün tələblərinə uyğun şəkildə müasir mədəni hadisələrə çevrilməsinin ən aşkar nümunələri ilə tanış olacaqlar. | 6 |

| | | |
|---|---|---|
| 10 | **Tənqidin fenomenologiyası**<br>Kurs ərzində tələbənin təsəvvüründə tənqidlə fəlsəfənin əlaqələr mənzərəsi yaradılır və bu mənzərə antic yunan fəlsəfəsi və teatr nüvəsinin ətrafında formalaşdırılır ki, buradan da Orta əsrlər və İntibah dövrünün fəlsəfəsinə, klassik alman fəlsəfəsi nümayəndələrinə, həmçinin XIX və XX əsr filosoflarının irsinə ekskurslar edilir. Fənn magistr tələbənin mühakimə yürütmək, müzakirələrdə fikrini müdafiə etmək, mübahisəli məsələlərdə consensus yollarını aramaq, problemin kökünə baxmaq, onun koqnitiv aspektlərini incələmək bacarığının daha yüksək pilləyə çatmasına, tənqidin ontoloji və qnesoloji dəyərini, onun universallığını anlayıb dərk etməyə yardımçı olur. | 6 |
| 11 | **Dünya dramaturgiyası Azərbaycan səhnəsində**<br>Fənnin proqramında tələbələrə dünya klassiklərinin Azərbaycan teatrında tamaşaya qoyulmuş əsərləri barədə ətraflı məlumat verilir, ayrı-ayrı tamaşalar təhlil olunur. | 6 |
| 12 | **Azərbaycan teatrının estetik prinsipləri**<br>Bu fənninin məqsədi Azərbaycan teatr sənətinin formalaşma qanuna-uyğunluqlarını, estetik meyarlarını və inkişaf mərhələlərini öyrənməkdir. Fənn tələbələrə teatr estetikasının nəzəri əsaslarını, milli teatr düşüncəsinin xüsusiyyətlərini və müxtəlif dövrlərin bədii istiqamətlərini mənimsətməyi hədəfləyir. Bu fənn həmçinin Azərbaycan teatrının poetikasını, səhnə üslublarını və rejissor – aktyor yaradıcılığının estetik əsaslarını araşdırır. | 6 |
| **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | | |
| 13 | **a)Teatr semiotikası**<br>Bu fənn çərçivəsində tələbələr semiotikanın əsas terminoloji aparatı ilə tanış olmalı, semiotikanın predmeti – işarə və onun nəzərdən keçirilməsinin müxtəlif aspektləri haqqında anlayış əldə etməlidirlər. tələbələr həmçinin işarə sistemləri, dil, mətn, işarələr arasında müxtəlif növ əlaqəni öyrənməlidirlər. Həmçinin onlar işarə ilə bədii obraz, işarə ilə simvol arasındakı fərqi görməlidirlər.<br>**b) Tamaşanın bədii strukturu**<br>Bu fənnin məqsədi tamaşanın yaranma mexanizmini, onun əsas bədii komponentlərini və səhnə formalaşma prinsiplərini tələbələrə geniş şəkildə öyrətməkdir. Fənn süjet quruluşu, mizan, aktyor oyunu, ritm, plastika və vizual tərtibat kimi elementlərin tamaşanın estetik bütövlüyündə rolunu nəzəri və praktiki aspektdə araşdırır. Tələbələr müxtəlif rejissor yanaşmaları, üslubi istiqamətlər və səhnə dillərinin tamaşanın strukturuna təsirini təhlil etməyi öyrənirlər. Bu dərs tələbələrə tamaşanın bədii-struktur modelini professional şəkildə anlamaq və analitik şəkildə təhlil etmək bacarığı qazandırır. | 6 |
| 14 | **a) Layihələrin idarə olunması**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və*<br>*s. mövzular əhatə olunmalıdır.* | |

| | | |
|---|---|---|
| | **b) İşgüzar xarici dil**<br>Təhsil proqramının strukturu ümumi fənnlər bölməsində əks olunur və əsas fənnlər bölməsinin tərkibindədir. "İşgüzar xarici dil (ingilis dili)" fənni magistratura səviyyəsində təhsil alan tələbələrə ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahidləri həcmində leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, öyrənilən dil ölkələrinin mədəniyyət və adət-ənənələrini, nitq etiketləri qaydalarını öyrədir. Xarici dildə lüğətin köməyi ilə oxumaq və yazmaq vərdişlərinə, ali tədris müəssəsində tədris və tədqiqat işləri aparmağa yiyələndirir. | |
| 15 | **a) İncəsənət və süni intellect**<br>"İncəsənət və süni intellekt" fənni incəsənət, teatr və rəqəmsal texnologiyaların kəsişməsində yaranan yeni yaradıcılıq formalarını, süni intellektin sənət proseslərinə təsir mexanizmlərini və teatr praktikalarında tətbiq imkanlarını öyrədir. Fənn çərçivəsində tələbələr generativ alqoritmlər, neyron şəbəkələri, interaktiv sistemlər və multimodal Sİ kimi müasir texnologiyaların dramaturgiya, səhnəqrafiya, aktyor oyunu, tamaşa istehsalı və tamaşaçı ilə ünsiyyətə gətirdiyi yenilikləri araşdırırlar. Magistrantlar həm nəzəri (Sİ-in incəsənətin tarixi inkişafına təsiri, etik-hüquqi məsələlər), həm də praktik (Sİ vasitəsilə kreativ tapşırıqlar, interaktiv səhnə modelləri) bacarıqlarını formalaşdırırlar. Fənnin əsas məqsədi tələbələrə müasir rəqəmsal estetikanı başa salmaq, süni intellektlə yaradıcı əməkdaşlıq qurmaq və teatr sənətində innovativ həllər tətbiq etməyi öyrətməkdir.<br><br>**b) İncəsənətdə rəqəmsal texnologiyalar**<br>"İncəsənətdə rəqəmsal texnologiyalar" fənni teatr sənəti və digər incəsənət sahələrində rəqəmsal texnologiyaların tətbiqini, onların yaradıcılıq proseslərinə gətirdiyi yeni formaları və estetik transformasiyaları öyrədir. Fənn çərçivəsində tələbələr müasir rəqəmsal vasitələrin (3D modelləşdirmə, videoproyeksiya, motion capture, AR/VR, rəqəmsal səsləndirmə, interaktiv sistemlər, multimedia platformaları və s.) teatr tamaşalarının hazırlanması, səhnəqrafiya, işıq-səs dizaynı, aktyor oyun texnikaları və tamaşaçı ilə interaktiv əlaqədə hansı rol oynadığını araşdırırlar. Fənn həm nəzəri, həm də praktik komponentlərdən ibarətdir: tələbələr rəqəmsal estetika və media sənətlərinin əsaslarını öyrənir, eyni zamanda rəqəmsal alətlərdən istifadə etməklə səhnə eskizləri, multimedia kompozisiyaları və interaktiv performans layihələri hazırlayırlar. Fənnin məqsədi magistrantlara müasir rəqəmsal texnologiyalardan yaradıcı şəkildə istifadə etmək, teatr sənətində innovativ həllər tətbiq etmək və rəqəmsal mühitlə işləmə bacarığı qazandırmaqdır. | 6 |

| **Təcrübə** | | |
|---|---|---|
| 1 | **Elmi-pedaqoji təcrübə**<br>"Elmi-pedaqoji təcrübə" tələbələrin həm nəzəri, həm də praktiki vərdişlərinin formalaşmasına təkan verir. "Elmi-pedaqoji təcrübə" magistr hazırlığının mühüm tərkib hissəsidir və tələbələrin nəzəri biliklərini praktiki mühitdə tətbiq etməsinə, elmi-tədqiqat və pedaqoji bacarıqlarını inkişaf etdirməsinə xidmət edir, eyni zamanda elmi fəaliyyətin | 6 |

| | | |
|---|---|---|
| | əsas istiqamətlərini, pedaqoji işin metod və formalarını öyrənməklə yanaşı, tələbələrin müstəqil düşünmə, analitik yanaşma və yaradıcı fəaliyyət qabiliyyətlərini də formalaşdırır. | |
| 2 | **Elmi tədqiqat təcrübəsi**<br>"Elmi tədqiqat təcrübəsi"nin məqsədi tələbələrə teatrşünaslıq sahəsində müstəqil elmi araşdırma bacarığı qazandırmaq, elmi metodologiyanı praktik şəkildə tətbiq etməyi öyrətməkdir. Təcrübə prosesində tələbələr teatr tənqidi, teatr tarixi və nəzəriyyəsi üzrə mövzu seçir, mənbələrlə işləmə, analitik təhlil və elmi nəticə çıxarma vərdişlərini inkişaf etdirirlər. Həmçinin, tələbələr real teatr proseslərinin müşahidəsi, arxiv və kitabxana materiallarının tədqiqi vasitəsilə fənnin praktiki tərəflərini mənimsəyirlər. | 6 |
| | **Dissertasiya işi** | |
| 1 | **Magistrlik dissertasiyası**<br>"Magistrlik dissertasiyası" müdafiəsi teatrşünaslıq üzrə magistrantın seçilmiş mövzuya dair elmi-nəzəri hazırlığını və müstəqil tədqiqat aparmaq bacarığını nümayiş etdirdiyi yekun mərhələdir. Müdafiə zamanı tələbə dissertasiyanın məqsədini, əsas nəticələrini və yeniliklərini elmi şuranın qarşısında təqdim edir, irəli sürdüyü tezisləri müzakirə və sual-cavab vasitəsilə əsaslandırır. Komissiya tədqiqatın elmi dəyərini, metodoloji düzgünlüyünü və teatr tənqidi və ya teatr tarixi–nəzəriyyəsi üzrə ixtisaslaşmaya uyğunluğunu qiymətləndirir. Müdafiənin nəticəsinə əsasən tələbəyə magistr dərəcəsi verilir. | 18 |
| **CƏMİ** | | **120** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə

inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir. Ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

***Teatr tənqidi ixtisaslaşması üzrə:***

- Xüsusi daşıyıcılarda daşınan tamaşa və performans toplusu.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. Sənətşünaslıq ixtisası üzrə magistratura təhsili almış mütəxəssis dövlət qurumları, Mədəniyyət Nazirliyi, Turizm Agentliyi və yerli icra hakimiyyətlərinin mədəniyyət şöbələri; təhsil proqramları və dərsliklərin hazırlanmasında ekspert; ölkə xaricində fəaliyyət göstərən qurumlar və diplomatik korpuslarda mədəniyyət sahəsi üzrə məsul şəxs; ATM-lərin bakalavriat səviyyəsində, incəsənət yönümlü orta ixtisas, tam orta təhsil müəssisələrində pedaqoq; kütləvi informasiya mərkəzlərində jurnalist, redaktor, ekspert; Mədəniyyət tədbirləri, festivallar və simpoziumların təşkilatçısı; kino, teatr və incəsənət tənqidçisi; mədəni sahədə festivallarda sahəsi üzrə ekspert, jüri, koordinator; sahəsi üzrə müxtəlif KİV-lərdə redaktor və ekspert; sahəsi üzrə AMEA və digər elmi-tədqiqat institutlarında elmi işçi; UNESCO, ICOM, ISESCO kimi təşkilatlarda, QHT-lərdə mədəni irs, mədəni irsin qorunması, maarifləndirmə üzrə ekspert; mədəni layihələr və tədbirlərin təşkilatçılığı sahəsində işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

***Teatr tənqidi ixtisaslaşması üzrə:***

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| **PTN 1.** Sənətşünaslıq sahəsində (teatr tənqidi) nəzəri və tənqidi metodları biləcək, elmi problemin formalaşdırılması, hipotezin irəli sürülməsini və tədqiqat metodlarının nəticələrini əsaslandırmağı bacaracaq. Yüksək ixtisaslı sənətşünas funksiyalarını həyata keçirməyi bacaracaq. Topladığı tarixi və nəzəri bilgiləri tamaşaların, teatr prosesinin təhlilində tətbiq etməyi bacaracaq. |
| **PTN 2.** Tənqidin rolu, vəzifələri, missiyası ilə əlaqədar tədqiqatlar aparmağı bacaracaq. Tənqidin tarixini, fəlsəfəsini, mövcudluq məntiqini, sinkretik xüsusiyyətlərini, fenomenologiyasını biləcək. |
| **PTN 3.** Azərbaycan klassik mədəniyyəti ilə etnomədəniyyət arasında üzvi rabitənin ideoloji, bədii-estetik parametrlərini biləcək. Müxtəlif estetik mövqelərə, məktəblərə və teatr janrlarına bələd olacaq və plüralizm prinsiplərinə əsaslanmağı, həmçinin Azərbaycan teatrının fəlsəfi-estetik kontekstini inkişaf etdirməyi bacaracaq. |
| **PTN 4.** Dünya və yerli teatr prosesinin öncül inkişaf tendensiyalarını və problemlərini biləcək. Çağdaş teatr aləmindəki başlıca tendensiyaları – onların yaranma qanunauyğunluqlarını və mövcudluq parametrlərinin səbəb və şərtlərini biləcək. |
| **PTN 5.** Teatr festivallarının, müxtəlif səciyyəli müsabiqələrin quruluşu, funksiyası və beynəlxalq mədəni əməkdaşlıqdakı rolu barədə biliklərə malik olacaq və bu bilikləri praktik layihələrdə tətbiq edəcək. Azərbaycan teatrının beynəlxalq festivallarda təmsil olunmasına yardım göstərməyi, festival layihələri təqdim etməyi bacaracaq. Beynəlxalq və yerli teatr məktəbləri ilə inteqrasiya əlaqələri qurmağı bacaracaq. |
| **PTN 6.** Teatr prosesini tamaşalar barədə qələmə alınan resenziyalarla, analitik və portret məqalələrlə zənginləşdirməyi bacaracaq. Kütləvi informasiya vasitələrində teatr hadisələrinin, prosesin, tamaşaların maraqlı müzakirələrini təşkil və şərh etməyi bacaracaq. Tənqidi fəaliyyətin cəmiyyətə təsirini dərk edəcək. |
| **PTN 7.** Elmi-tədqiqat işi apararkən əsaslı mənbələrdən, muzey və arxiv materiallarından, o cümlədən müasir rəqəmsal resurslardan istifadə etməyi, onları sistemləşdirməyi, təsnifat aparmağı və tədqiqat işində tətbiq etməyi bacaracaq. Kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına əsaslanaraq tədqiqat aparmağı bacaracaq. Kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edərək, verilənləri araşdırmağı və təhlil etməyi bacaracaq. |
| **PTN 8.** Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Teatr tənqidi sahəsində elmi-metodiki və pedaqoji səviyyədə tədris prosesini aparmağı bacaracaq. |
| **PTN 9.** Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını biləcək. Mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmağı bacaracaq. |

| |
|---|
| Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışıq, nəşr etikası bacarıqlarına malik olacaq. Sahə üzrə terminologiyanı və sənədləşdirməni biləcək. |
| **PTN 10.** Məlumatların təhlil üçün hazırlanması və filtrasiyası, təhlil üçün sistemləşdirilməsi, vizuallaşdırılması, təhlili prosesi, növləri, toplanma mənbələri, təhlili üzrə strategiyanın qurulması və sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ("Excel", "SPSS" və s.) ilə tanış olacaq. İxtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillər (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) aparmağı və təhlillərin əsasında müvafiq rəylər hazırlamağı bacaracaq. |

| **Tədqiqat metodları fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| FTN 2 - Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| FTN 3 - Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| FTN 4 - Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |
| FTN 5 - Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| FTN 6 - Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq edə biləcək. |

| **Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| **Tədqiqat analitikası fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. |
| FTN 2 - Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |

| |
|---|
| FTN 3 - Fərqli proqram təminatlarında ("Excel", "EViews", "SPSS", "Python", "R", "Matlab" və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| FTN 4 - Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| FTN 5 - Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |
| FTN 6 - Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək. |

| Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| Teatrşünaslığın tarixi və metodologiyası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Elmi axtarışlar və elmi-tədqiqat işini yerinə yetirəcək. |
| FTN 2. Teatrşünaslığın problemlərinin təhlilində tarixiliklə müasirliyin qarşılıqlı əlaqələrini dəyərləndirməyi bacaracaq. |
| FTN 3. Öz elmi axtarışlarının nəticələrini təqdim edəcək. |
| FTN 4. Klassik teatr prinsiplərinin müxtəlif aspektləri ətrafında müstəqil təhlillər aparacaq. |
| FTN 5. Teatrşünaslıq sahəsində istifadə olunan əsas elmi metod və yanaşmaları (tarixi, müqayisəli, struktur-funksional, semiotik və s.) tətbiq etməyi bacaracaq. |
| FTN 6. Müasir teatr proseslərini və yeni səhnə tendensiyalarını (postdramatik teatr, performans sənəti və s.) elmi-nəzəri kontekstdə təhlil və interpretasiya edəcək. |

| Klassik pyeslərin paradiqması fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Sənətşünaslıq elminin inkişafındakı əsas mərhələlər haqqında biliklərin məcmusu kimi sənətşünaslıq haqqında təsəvvür yaratmağı öyrənəcək. |
| FTN 2. Sənətşünaslıq tarixini öyrənəcək. |
| FTN 3. Teatr sənətinin növləri və janrlarını, vasitələri və prinsiplərini, əsas ifadə vasitələri və texnalogiyasını, təsnifat prinsiplərini öyrənəcək. |

| |
|---|
| FTN 4. Sənətşünaslığın əsas metodoloji prinsipləri, onların yaranma tarixi və təqdimat xarakterini öyrənəcək. |
| FTN 5. Sənətşünaslıq analizinin əsas anlayışlarını və metodlarını, tədrisi və sistemli təhlilini aparmağı öyrənəcək. |
| FTN 6. Klassik pyeslərin dramaturji strukturunu, ideya-bədii məzmununu və tarixi-estetik kontekstini müqayisəli şəkildə təhlil etməyi, bu əsərlərin müasir teatr praktikası və rejissor yozumları ilə əlaqəsini əsaslandırmağı öyrənəcək. |

| Tənqidin fenomenologiyası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Öz gələcək tənqidçi fəaliyyətində tənqidin universal mahiyyətini, tənqidin bir janr kimi sintetikliyini və mükəmməl nəzəri bazaya malik olduğunu, şəxsi rəyə yox, elmi biliklərə əsaslandığını anlayıb dərk edəcək. |
| FTN 2. Tənqidçinin araşdırma metodologiyasına yiyələnəcək. |
| FTN 3. Tənqidin fəlsəfi biliklərlə eyni bir müstəvidə qərarlaşdığını, tənqidin özünün eyləmçi bir fəlsəfə olduğunu başa düşəcək. |
| FTN 4. Fikirlərini elmi biliklərə söykənərək yazmağı öyrənəcək. |
| FTN 5. Obyektin təkcə görünən tərəflərinin deyil, onun görünməyən tərəflərini də təhlil etmək səriştəsinə yiyələnib, mütəmadi öz düşüncəsinin, teatr qavrayışının hüdudlarını genişləndirmək vərdişinə sahiblənəcək. |
| FTN 6. Tənqid fəaliyyətində etik prinsiplərə və akademik dürüstlük normalarına əməl edir; müxtəlif estetik yanaşmaları müqayisəli şəkildə təhlil edərək müstəqil, əsaslandırılmış və arqumentləşdirilmiş elmi-tənqidi nəticələr formalaşdırmaq bacarığı nümayiş etdirəcək. |

| Qərb və Şərq teatrının inteqrasiyası tarixi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. XIX-XX əsrlərdə, eləcə də, müasir teatr aləmində yaradıcılığı ilə seçilən dramaturq və rejissorların yaradıcılıq fəaliyyətini öyrənəcək. |
| FTN 2. Qərb və Şərq xadimlərinin teatr görüşlərini, Qərb və Şərq xalqlarının teatr formalarını müqayisəli təhlil edəcək. |
| FTN 3. Müxtəlif mənbələrdən informasiya almağı həmçinin onu emal və təhlil etməyi bacaracaq. |
| FTN 4. Fənnin tədris prosesində Avropanın və Rusiyanın aparıcı teatr xadimlərinin Şərq teatrının ənənəvi formalarına münasibəti barəsində biliklərə yiyələnəcək. |
| FTN 5. Təhsili gerçəkləşən tədris proqramlarında müasir üsullardan istifadə etmək səriştəsinə yiyələnəcək. |
| FTN 6. Qərb və Şərq teatr ənənələrinin sintezi əsasında müasir səhnə layihələri və yaradıcı konsepsiyalar hazırlamaq, interkultural teatr yanaşmalarını praktik tətbiq etmək bacarığını öyrənəcək. |

| Teatr semiotikası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Teatrın müxtəlif aspektlərinin müstəqil təhlilini aparmaq bacarığına, Teatrşünaslıqda problemlərin təhlili zamanı tarixi və müasir dövr arasındakı əlaqəni müqayisə etmək işinə nail olacaq. |

| |
|---|
| FTN 2. Elmi tədqiqat aparmaq qabiliyyətinə, elmi tədqiqatınızın nəticələrini təqdim etmək vərdişinə yiyələnəcək. |
| FTN 3. Ali təhsilin bakalavriat səviyyəsində xüsusi təhsil fənlərinin tədrisi bacarıqlarına yiyələnəcək. |
| FTN 4. Təlim, təlim və ya digər üsullarla bilikləri başqalarına ötürmək qabiliyyətinə sahib olacaq. |
| FTN 5. Beynəlxalq arenada işləmək, yeni ideyalar təklif etmək, müstəqil işləmək qabiliyyətinə yüksələcək. |
| FTN 6. Teatr semiotikası çərçivəsində səhnə mətninin (işarə sistemlərinin, simvolik strukturların və kommunikativ elementlərin) kompleks analizi əsasında yaradıcı və tənqidi yanaşma formalaşdırmaq, əldə olunan nəticələri interdisiplinar kontekstdə tətbiq edəcək. |

| Teatrşünaslığın müasir problemləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Teatrşünaslığın obyekti, məqsədi və vəzifələrini, onun bir elm kimi formalaşması və inkişafına dair konkret məlumatları, teatr sənətinin nəzəri və praktiki əsaslarını daha dərindən öyrənəcək. |
| FTN 2. Dünyanın dərk edilməsində teatr sənətinin daşıdığı xüsusi əhəmiyyətin mühümlüyünü əsaslandırmağı, Teatrşünaslığın problemləri ilə bağlı təhlillər aparmağı öyrənəcək. |
| FTN 3. Müxtəlif mənbələrdən informasiya almağı, həmçinin onun emal və təhlil etmək bacarıqlarını təkmilləşdirəcək. |
| FTN 4. Tədris prosesində əldə edilən biliklərin təsnifatında müasir modelləşmə formalarının tətbiqi bacarıqlarına yiyələnəcək. |
| FTN 5. Təhsili gerçəkləşən tədris proqramlarında müasir üsullardan istifadə etmək səriştəsinə yiyələnəcək. |
| FTN 6. Teatrşünaslıq sahəsində müasir elmi yanaşmaları və tədqiqat metodlarını tətbiq etməklə, teatr proseslərinin analitik qiymətləndirilməsini aparmaq, elmi nəticələri akademik yazı və təqdimat formatında əsaslandırılmış şəkildə təqdim etmək bacarıqlarına yiyələnəcək. |

| Teatrda janr və üslub məsələləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Dram nəzəriyyəsinin müxtəlif mərhələlərinə dair konkret məlumatları, teatr sənətinin nəzəri və praktiki əsaslarını, dramaturgiyanın tarixən keçdiyi yolun sistemləşdirilməsi qanunauyğunluqlarını öyrənəcək. |
| FTN 2. Dünyanın dərk edilməsində teatr sənətinin daşıdığı xüsusi əhəmiyyətin mühümlüyünü əsaslandırmağı, həmçinin dram nəzəriyyəsinin problemləri ilə bağlı təhlillər aparmaq bacarıqlarını təkmilləşdirməyi bacaracaq. |
| FTN 3. Müxtəlif mənbələrdən informasiya almağı, həmçinin onu emal və təhlil etməyi öyrənəcək. |
| FTN 4. Tədris prosesində əldə edilən biliklərin təsnifatında müasir modelləşmə formalarının tətbiqini mənimsəyəcək. |
| FTN 5. Təhsili gerçəkləşən tədris proqramlarında müasir üsullardan istifadə etmək səriştəsinə yiyələnəcək. |
| FTN 6. Teatrda janr və üslub xüsusiyyətlərini praktik səviyyədə tətbiq etməyi, müxtəlif janrlarda (dramatik, komik, tragikomik və s.) səhnə materialını təhlil edib üslubi baxımdan əsaslandırılmış yaradıcı həllər təqdim etməyi bacaracaq. |

| Azərbaycan teatrının estetik prinsipləri fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. Peşəkar məqsədlər üçün müvafiq məlumatı ümumiləşdirmək, təhlil etmək və tətbiq etməyi bacaracaq. |
| FTN 2. Peşənin məzmun qatı və miqyası haqda zəngin biliklərə yiyələnəcək. |
| FTN 3. Milli teatrşünaslığın təşəkkül tarixin və inkişaf dinamikasında əhəmiyyətli tendensiyaları biləcək. |
| FTN 4. Yerli teatr prosesinin perspektiv və retrospektiv mənzərəsinin teatrşünas rəylərindən görməyi bacaracaq. |
| FTN 5. Analitik təfəkkürə yiyələnir, paradoksal mühakimə yürütmək vərdişləri əldə edəcək. |
| FTN 6. Azərbaycan teatrının estetik prinsiplərini müasir nəzəri yanaşmalar və beynəlxalq teatr təcrübəsi kontekstində müqayisəli şəkildə şərh etməyi, yaradıcı interpretasiya və tənqidi qiymətləndirmə aparmağı bacaracaq. |

| Dünya dramaturgiyası Azərbaycan səhnəsində fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. Tələbə dünya dramaturgiyasının əsas mərhələlərini, aparıcı dramaturqların yaradıcılıq xüsusiyyətlərini və onların Azərbaycan teatrında səhnə təcəssümünü dərindən izah edə biləcək. |
| FTN 2. Müxtəlif ölkələrin dramaturji ənənələrinin Azərbaycan səhnəsində interpretasiya üsullarını və rejissor yanaşmalarını təhlil edə biləcək. |
| FTN 3. Dünya dramaturgiyasından seçilmiş əsərlərin milli teatr mühitinə uyğunlaşdırılması prosesini, səhnə poetikasını və tamaşa estetikasını qiymətləndirə biləcək. |
| FTN 4. Azərbaycan teatr tarixində dünya klassik və müasir dramaturgiyasının təsirini, inkişafda oynadığı rolu elmi və analitik yanaşma ilə əsaslandıra biləcək. |
| FTN 5. Səhnə nümunələri, tamaşa materialları və tənqidi mənbələr əsasında dünya dramaturgiyasının Azərbaycan teatrındakı bədii-estetik əhəmiyyətini müstəqil şəkildə araşdırıb nəticə çıxara biləcək. |
| FTN 6. Dünya dramaturgiyasının seçilmiş nümunələri əsasında Azərbaycan səhnəsi üçün konseptual rejissor həlli hazırlaya, dramaturji materialı müasir interpretasiya kontekstində yaradıcı şəkildə tətbiq edə və bu prosesdə milli-mədəni xüsusiyyətlərlə qlobal teatr tendensiyalarını sintez edə biləcək. |

| İşgüzar xarici dil fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. Tələbə akademik yazı və danışıq qaydalarını, elmi dürüstlük prinsiplərini izah edə biləcək. |
| FTN 2. Tələbə elmi məqalənin strukturu və əsas komponentlərini sadalaya biləcək. |
| FTN 3. Tələbə akademik və işgüzar sənədləri (məktub, müraciət, CV, hesabat və s.) xarici dildə düzgün tərtib edə biləcək. |
| FTN 4. Tələbə esse yazma qaydalarını tətbiq edərək müxtəlif mövzularda esse hazırlaya biləcək. |
| FTN 5. Tələbə elmi məqalələri struktur, məzmun və üslub baxımından təhlil edə biləcək. |
| FTN 6. Tələbə nəşr etikası normalarını (istinad, müəlliflik hüquqları, plagiat) qiymətləndirə və öz işində tətbiq edə biləcək. |

| Tamaşanın bədii strukturu fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. Dramaturji quruluş, süjet xətti, konflikt sistemi və kompozisiya elementlərini elmi əsaslarla izah edəcək. |
| FTN 2. Səhnə həllinin ideya-məzmun və bədii forma ilə qarşılıqlı təsirini əsaslandıracaq. |
| FTN 3. Obrazın psixoloji, plastik və vokal elementlərinin tamaşa bütövlüyündə rolunu şərh edəcək. |
| FTN 4. Vizual və akustik vasitələrin dramaturji struktura təsirini təhlil edəcək. |
| FTN 5. Müxtəlif teatr janrlarında (dram, komediya, musiqili teatr və s.) bədii struktur xüsusiyyətlərini müqayisə edəcək. |
| FTN 6. Tamaşanın bədii strukturunu müstəqil şəkildə analiz edir və qiymətləndirir – konkret tamaşalar üzərində analitik yanaşma tətbiq edərək elmi əsaslandırılmış nəticələr çıxaracaq. |

| Layihələrin idarə olunması fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| İncəsənət və süni intellekt fənni üzrə təlim nəticələri (FTN) |
| --- |
| FTN 1. İncəsənət və süni intellektin qarşılıqlı əlaqəsi, onların tarixi inkişaf mərhələləri və müasir tendensiyaləri haqqında dərin bilik əldə edəcək. |
| FTN 2. Generativ AI, maşın öyrənməsi, neyron şəbəkələri kimi texnologiyaların incəsənətdə tətbiq prinsiplərini izah edə biləcək. |
| FTN 3. Rəqəmsal art, kiber-art, bio-art, interaktiv media kimi AI əsaslı incəsənət formalarının nəzəri əsaslarını biləcək. |
| FTN 4. Süni intellektin incəsənətdə istifadəsi ilə bağlı etik, hüquqi və müəlliflik məsələlərini mənimsəyəcək. |
| FTN 5. AI alətləri ilə vizual, səs, mətn və interaktiv sənət məhsulları yaratmaq bacarığı formalaşdıracaq. |
| FTN 6. İncəsənət nümunələrini süni intellektin təsiri baxımından təhlil etmək, semiotik, texnoloji və estetik yanaşmalar tətbiq etmək bacarığına yiyələnəcək. |

| İncəsənətdə rəqəmsal texnologiyalar fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Rəqəmsal incəsənətin əsas anlayışlarını, istiqamətlərini və müasir mədəniyyət mühitində rolunu nəzəri baxımdan şərh edəcək. |
| FTN 2. Müxtəlif proqram təminatları (qrafik dizayn, video montaj, 3D modelləşdirmə və s.) vasitəsilə yaradıcı məhsullar hazırlayacaq. |
| FTN 3. Audio, video, animasiya və interaktiv elementləri birləşdirərək kompleks rəqəmsal layihələr hazırlayır və onları peşəkar şəkildə təqdim edəcək. |
| FTN 4. Mövcud rəqəmsal sənət nümunələrini təhlil edir, estetik və texnoloji yanaşmaları müqayisə edir və öz yaradıcı ideyalarını əsaslandıracaq. |
| FTN 5. Rəqəmsal kontentin istifadəsi və yayımı zamanı hüquqi və etik prinsipləri tətbiq edəcək. |
| FTN 6. Süni intellekt, virtual reallıq (VR), artırılmış reallıq (AR) kimi innovativ texnologiyaların incəsənətə təsirini analiz edir və gələcək perspektivləri müəyyənləşdirəcək. |

| Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2 - Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3 - Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4 - Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| FTN 5 - Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6 - Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

| Elmi tədqiqat təcrübəsi üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - İxtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd ve vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq. |
| FTN 2 - Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi, əməliyyat-taktiki təhiil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək. |
| FTN 3 - Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizinin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək. |
| FTN 4 – Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq. |

| |
|---|
| FTN 5 - Tədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək. |
| FTN 6 - Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək. |

| **Magistrlik dissertasiyası üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1 - Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək. |
| FTN 2 - İxtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi və operativ qərarların qəbulunda müasir elmi yanaşmaları tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək. |
| FTN 3 - Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə səriştə qazanacaq. |
| FTN 4 - Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktik tövsiyələr hazırlamaq və innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək. |
| FTN 5 - Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək bacarığına yiyələnəcək. |
| FTN 6 - Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fəaliyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək. |

Əlavə 2

**Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi**

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 |
| Tədqiqat metodları | x | x | | | | | x | | | x |
| Akademik yazı və etika | x | | | x | x | | | | x | |
| Tədqiqat analitikası | x | x | | | | | | | | |
| Ali məktəb pedaqogikası və psixologiya | | | x | | | | | x | | |
| Teatrşünaslığın tarixi və metodologiyası | | | | | | | | | | |
| Teatrda janr və üslub məsələləri | | | | x | | x | | | | x |
| Klassik pyeslərin teatr paradiqması | | | | | | | | | | |
| Teatrşünaslığın müasir problemləri | | x | | | | | | | | |
| Qərb və Şərq teatrının inteqrasiyası tarixi | x | | | | | | x | | | |
| Tənqidin fenomenologiyası | | | x | | x | | | | | |
| Dünya dramaturgiyası Azərbaycan səhnəsində | | | | | | | | | x | |
| Azərbaycan teatrının estetik prinsipləri | | x | | x | | | | x | | |
| Teatr semiotikası | x | | | | | x | | | | |
| Tamaşanın bədii strukturu | | | x | | | | | | | |
| Layihələrin idarə olunması | | | | | | | | | | x |
| İşgüzar xarici dil | | | | | | | x | | | |
| İncəsənət və süni intellekt | | | | | x | | | | | |
| İncəsənətdə rəqəmsal texnologiyalar | | | x | | | | | | x | |
| Elmi-pedaqoji təcrübə | | | | | | x | | x | | |
| Elmi tədqiqat təcrübəsi | x | x | | | | | x | | | |
| Magistrlik dissertasiyası | | | | x | | | | | | x |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Teatrşünaslıq kafedrasının müdiri:** ____________ **Aydın Talıbzadə**

**ADMİU-nun Teatr sənəti fakültəsinin dekanı:** ____________ **Kəmalə Mehdiyeva**